**TƏSDİQ EDİRƏM**
**Rektor: ____________ E.S.İsayev**
**__ fevral 2023-cü il**

(Əlavə 1)

# "ƏCNƏBİLƏRİN ALİ TƏHSİL SƏVİYYƏSİ ÜZRƏ HAZIRLIĞI VƏ TƏDRİS DİLİNİ BİLMƏ SƏVİYYƏSİNİN UNİVERSİTET TƏRƏFİNDƏN YOXLANMASI" QAYDALARI

## 1. Ümumi müddəa

1. Bu Qaydalar Naxçıvan Dövlət Universiteti (bundan sonra ismin müvafiq hallarında-Universitet) tərəfindən Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 01 may 2015-ci il tarixli, 125 nömrəli "Azərbaycan Respublikası vətəndaşlarının xarici ölkələrdə, əcnəbi və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında təhsil alması Qaydaları"nının 3.5-ci maddəsi rəhbər tutularaq "Əcnəbilərin Ali təhsil səviyyəsi üzrə hazırlığı və tədris dilini bilmə səviyyəsinin universitet tərəfindən yoxlanması" Qaydalarını müəyyən edir.

## 2. Komissiyanın fəaliyyəti

2.1. Beş tərkibdən ibarət müsahibə Komissiya (Komissiyalar) yaradılır.

2.2. Komissiya Universitetə müsahibə yolu ilə dinləyici qəbulunu keçirir.

2.3 Boş yerlərin sayına uyğun olaraq ən çox bal toplamış namizədlər müsahibədən keçmiş hesab olunur.

2.4. Müsahibənin keçirilməsi məqsədi ilə müsahibə Komissiyasının sədri tərəfindən müsahibə heyəti və müsahibə prosesində iştirak edən digər şəxslər müəyyən edilir.

2.5. Müsahibə qanunçuluq, obyektivlik, bərabərlik, şəffaflıq və aşkarlıq prinsipləri əsasında keçirilir.

2.6. Müsahibənin keçirilmə yeri və vaxtı Universitet tərəfindən müəyyən edilir və bu barədə məlumatları özündə əks etdirən qrafik və namizədin ad, soy ad və ata adı müsahibəyə azı 3 gün qalmış "www.ndu.edu.az " saytına yerləşdirilir.

2.7. Namizəd şəxsiyyətini təsdiq edən sənədi və ya qanunla müəyyən edilmiş qaydada ona bərabər tutulan sənədi təqdim etməklə, müsahibədə iştirak edir. Namizəd Müsahibədə iştirak edərkən, yaddaş kitabçasında əks olunan tələblərə və qadağalara əməl etməlidir. Namizədin bu tələblərə və qadağalara əməl etməməsi halları müsahibə Komissiyası tərəfindən aşkar edildikdə, onun müsahibə nəticələrinin ləğv olunması barədə qərar qəbul edilir. Bu qərardan apeliyasiya şikayəti verilə bilər.

2.8. Müsahibə şifahi keçirilir və video çəkiliş aparılır.

2.9. Hər namizədə ən çoxu 15 (on beş) dəqiqə vaxt ayrılır.

2.10. Müsahibənin Proqramı müsahibə elan edildiyi gün "www.ndu.edu.az " saytına yerləşdirilir.

2.11. Müsahibə nəticələri haqqında məlumat ən geci 3 iş günü ərzində "ndu.edu.az" saytında yerləşdirilir.

2.12. Namizədin müraciəti əsasında Müsahibə Komissiyası tərəfindən ona müsahibənin nəticəsinə dair e-mail ünvanına arayış göndərilir.

2.13. Namizədin müsahibədə verdiyi cavablar aşağıdakı qaydada qiymətləndirilir.

2.14. Müsahibə Komissiyası üzvləri tərəfindən hər namizəd ən çox 50 balla (Azərbaycan dili və ya İngilis dili-20 bal, bilik səviyyəsi-20 bal, ümumi dünyagörüşü və boş olan əcnəbi tələbə yeri üçün zəruri olan keyfiyyətlər-10 bal) qiymətləndirilir, Komissiya üzvləri arasında qiymətləndirmə zamanı 5 baldan artıq fərq yaranarsa qiymətləndirmə etibarsız hesab edilir və həmin namizədə münasibətdə yenidən müsahibə aparılır.

2.15. Namizədin müsahibə nəticəsinə dair bal cədvəli tutulur. (1 nömrəli əlavə)

2.16. Müsahibə Komissiyası bütün namizədlərin qiymətləndirilməsini protokollaşdırır. (2 nömrəli əlavə)

2.17. Namizəd müsahibənin nəticələri ilə razı olmadıqda, nəticələr "ndu.edu.az" saytında yerləşdirildiyi gündən 3 iş günü müddətində Universitet tərəfindən yaradılmış apelyasiya komissiyasına şikayət verə bilər. Şikayətə baxıldıqdan sonra nəticələrə dair müvafiq qərar qəbul edilir.

## 3. Yekun müddəalar

3.1. Bu Qaydalar Universitet Elmi Şurası tərəfindən qəbul edildikdən və Universitetin rektoru tərəfindən təsdiq edildikdən sonra qüvvəyə minir və ya ləğv edilir.

3.2. Bu Qaydalara əlavə və dəyişikliklər Universitet Elmi Şurasının razılığı ilə edilə bilər.

3.3. Bu qaydalar 01 mart 2023-cü il tarixindən qüvvəyə minir.

**********************************************************************************

AZƏRBAYCAN RESPUBLİKASININ ELM VƏ TƏHSİL NAZİRLİYİ
NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ

"Əcnəbilərin müvafiq təhsil səviyyəsi üzrə hazırlığı və tədris dilini bilmə səviyyəsinin universitet tərəfindən yoxlanması" Qaydalarına

**1 nömrəli əlavə**

**Namizədin uyğunluğunun qiymətləndirilməsinə dair**

**BAL CƏDVƏLİ**

| Foto (3x4) | **Namizəd:**<br>**Təvəllüdü:**<br>**Test balı (varsa):**<br>**Universitet:**<br>**Dinləyici kimi qəbul olmaq istədiyi ixtisasın adı:**<br>**e-mail:** |
|---|---|

| Qiymətləndirmə Meyarları | Ballar | Balların əsaslandırılması |
|---|---|---|
| 1. Azərbaycan dili və ya İngilis dil səviyyəsi | | |
| 2. Bilik səviyyəsi (nəzəri bilikləri, müsahibə proqramı üzrə ümumi biliklər, informasiya texnologiyaları üzrə biliklər) | | |
| 3. Ümumi dünyagörüşü və boş olan əcnəbi tələbə yeri üçün zəruri olan keyfiyyətlər (dünyada (ölkədə) və cəmiyyətdə baş verən mühüm hadisələrə dair məlumatlılıq, habelə bu hadisələrə dair mülahizələr; emosional sabitlik; məsuliyyətlilik; məqsədyönlülük; özünütənqid; təhliletmə; sosial aktivlik) | | |
| Ümumi bal | | Qeyd |

**Uyğundur** ☐ **Uyğun deyildir** ☐

------------------------------------------------ ---------------- ------------------

müsahibə komissiyası üzvünün soyadı, adı, atasının adı imza tarix

AZƏRBAYCAN RESPUBLİKASININ ELM VƏ TƏHSİL NAZİRLİYİ NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ

"Əcnəbilərin müvafiq təhsil səviyyəsi üzrə hazırlığı və tədris dilini bilmə səviyyəsinin universitet tərəfindən yoxlanması" Qaydalarına

**2 nömrəli əlavə**

**Namizədin uyğunluğunun qiymətləndirilməsinə dair**

## YEKUN PROTOKOL

Foto

(3x4)

**Namizəd:**
**Təvəllüdü:**
**Test balı (varsa):**
**Universitet:**
**Dinləyici kimi qəbul olmaq istədiyi ixtisasın adı:**
**e-mail:**

Yekun qiymətlənirəm balı: ☐

Uyğundur ☐ Uyğun deyildir ☐

---

müsahibə komissiyası üzvünün soyadı, adı, atasının adı imza

---

müsahibə komissiyası üzvünün soyadı, adı, atasının adı imza

---

müsahibə komissiyası üzvünün soyadı, adı, atasının adı imza

---

müsahibə komissiyası üzvünün soyadı, adı, atasının adı imza

---

müsahibə komissiyası üzvünün soyadı, adı, atasının adı imza

Qeydlər:

______________________________

"____" __________ 202__ il

AZƏRBAYCAN RESPUBLİKASININ ELM VƏ TƏHSİL NAZİRLİYİ NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ

X|T dekabr

**TƏSDİQ EDİRƏM**
**Rektor: ______ E.S.İsayev**
**"2 7" fevral 2023-cü il**

*(Əlavə 2)*

# "ƏCNƏBİLƏRİN MÜVAFİQ TƏHSİL SƏVİYYƏSİ ÜZRƏ HAZIRLIĞI VƏ TƏDRİS DİLİNİ BİLMƏ SƏVİYYƏSİNİN UNİVERSİTET TƏRƏFİNDƏN YOXLANMASI"NIN NƏTİCƏSİNDƏN NARAZI QALAN ŞƏXSLƏRİN APELLYASİYA ŞİKAYƏTİNƏ BAXILMASI" QAYDALARI

## 1. Ümumi müddəalar

1.1. Bu Qaydalar "Əcnəbilərin Müvafiq Təhsil Səviyyəsi üzrə Hazırlığı və Tədris Dilini Bilmə Səviyyəsinin Universitet Tərəfindən Yoxlanması"nın nəticəsindən narazı qalan şəxslərin Apellyasiya şikayətinə baxılması Qaydalarının nəticəsindən narazı qalan Əcnəbi tələbələrin apellyasiya komissiyasına şikayət verməsi, apellyasiya şikayətinə baxılması və qərar qəbul edilməsi qaydalarını müəyyən edir.

1.2. Apellyasiya şikayətinə qanunçuluq, obyektivlik və bərabərlik prinsipləri əsasında baxılır. Apellyasiya komissiyasının işinə müdaxilə yolverilməzdir.

## 2. Apellyasiya komissiyasının təşkili və apellyasiya şikayətinə baxılması

2.1. Apellyasiya şikayətinə baxılması üçün Naxçıvan Dövlət Universitetinin rektoru tərəfindən apellyasiya komissiyası təşkil edilir. Apellyasiya komissiyası sədr və digər 4 üzvdən ibarətdir.

2.2. Apellyasiya komissiyasının sədri apellyasiyanın ədalətli və obyektiv keçirilməsini təmin etməlidir.

2.3. Apellyasiya şikayətinə baxılması üçün apellyasiya komissiyasının azı 3 üzvü iştirak etməlidir. Apellyasiya komissiyası tərəfindən apellyasiya şikayətinə baxılarkən katib tərəfindən protokol tərtib edilir.

2.4. Nazmizəd "Əcnəbilərin Müvafiq Təhsil Səviyyəsi üzrə Hazırlığı və Tədris Dilini Bilmə Səviyyəsinin Universitet Tərəfindən Yoxlanması" zamanı nəticəsindən narazı qaldıqda nəticəsi rəsmi internet saytında yerləşdirildiyi gündən 5 iş günü müddətində apellyasiya komissiyasına şikayət verə bilər.

2.5. Şikayətdə şikayətçinin adı, atasının adı, soyadı və şikayətin yazıldığı tarix göstərilməli, həmçinin şikayət həmin şəxs tərəfindən imzalanmalıdır.

2.6. Apellyasiya şikayətinə 7 iş günü müddətində universitetin rektorluğunun inzibati binasında baxılır və müvafiq qərar qəbul edilir.

2.7. Apellyasiya şikayətinə baxılmasının yeri və vaxtı barədə ən azı 2 gün əvvəlcədən namizədə və dəvət edilmiş "Əcnəbilərin Müvafiq Təhsil Səviyyəsi üzrə Hazırlığı və Tədris Dilini Bilmə Səviyyəsinin Universitet Tərəfindən Yoxlanması" üçün yaradılan komissiyasının üzvünə (üzvlərinə) məlumat verilir.

2.8. Namizəd tərəfindən verilmiş apellyasiya şikayəti onun iştirakı ilə araşdırılır.

2.9. Apellyasiya komissiyasının üzvü Namizədlərdən hər hansı biri ilə yaxın qohumluq və ya şəxsi yaxınlıq münasibətində olduqda, yaxud apellyasiya şikayətinə baxılması prinsiplərinin pozulmasına səbəb ola bilən hallar mövcud olduqda özü özünə etiraz edir. İşçi qeyd olunan halları əsaslandırmaqla, apellyasiya komissiyasının hər hansı üzvünə (üzvlərinə) etiraz edə bilər.

Apellyasiya şikayətinə baxılmasına başlanarkən apellyasiya komissiyasının sədri komissiya üzvlərindən öz üzvlükləri barədə bu bənddə nəzərdə tutulmuş etirazlarının olub-olmamasını soruşur.

2.10. Appellyasiya şikayətinə baxılarkən namizəd apellyasiya komissiyasının üzvlərinə və apellyasiya şikayətinə baxılmasında iştirak edən digər şəxslərə qarşı qeyri-etik hərəkətlərə yol verdikdə və ya apellyasiya şikayətinə baxılmasına maneçilik etdikdə apellyasiya komissiyasının sədri tərəfindən xəbərdarlıq edilə və ya

apellyasiya şikayətinə baxılmasından kənarlaşdırıla bilər. Namizəd apellyasiya şikayətinə baxılmasından kənarlaşdırıldıqda apellyasiya şikayətinə onun iştirakı olmadan baxılır.

2.11. Apellyasiya şikayətinə baxılarkən namizədin şəxsi işi, video çəkiliş (çəkiliş aparıldıqda), "namizədin uyğunluğunun qiymətləndirilməsinə dair bal cədvəli, habelə digər zəruri sənədlər apellyasiya komissiyasına təqdim edilir. Apellyasiya komissiyası zərurət olduqda "Əcnəbilərin Müvafiq Təhsil Səviyyəsi üzrə Hazırlığı və Tədris Dilini Bilmə Səviyyəsinin Universitet Tərəfindən Yoxlanması" üçün yaradılan komissiyasının üzvünü (üzvlərini), müşahidəçi qismində iştirak etmiş şəxsi (şəxsləri) və müvafiq sahə üzrə mütəxəssisi (mütəxəssisləri) apellyasiya şikayətinə baxılmasına dəvət edə bilər.

2.12. Apellyasiya komissiyasında araşdırma aşağıdakı qaydada keçirilir:

2.12.1. Namizədin apellyasiya şikayətinə dair mülahizələri dinlənilir;

2.12.2. zərurət olduqda video çəkilişə (çəkiliş aparıldıqda) baxılır;

2.12.3. dəvət edilmiş "Əcnəbilərin Müvafiq Təhsil Səviyyəsi üzrə Hazırlığı və Tədris Dilini Bilmə Səviyyəsinin Universitet Tərəfindən Yoxlanması" üçün yaradılan komissiyasının üzvü (üzvləri) və müşahidəçi qismində iştirak etmiş şəxsin (şəxslərin) apellyasiya şikayətinə dair mülahizələri dinlənilir;

2.12.4. digər zəruri hallar araşdırılır.

### 3. Qərar qəbul edilməsi

3.1. Apellyasiya komissiyası tərəfindən qərar qəbul edilərkən yalnız apellyasiya komissiyasının üzvləri iştirak edir. Qərar apellyasiya komissiyası üzvlərinin açıq səsverməsi yolu və sadə səs çoxluğu ilə qəbul edilir və imzalanır. Apellyasiya komissiyası üzvünün xüsusi rəyi olduqda, rəy qərara əlavə edilir.

3.2. Apellyasiya komissiyası araşdırma nəticəsində aşağıdakı qərarlardan birini qəbul edir:

3.2.1. nəticəni qüvvədə saxlayır;

3.2.2. nəticəni ləğv edir.

3.3. nəticə ləğv edildikdə qanunvericiliyə uyğun olaraq, yeni tərkibdə komissiya yaradılmaqla imtahan yenidən keçirilir.

3.5. Qərar namizədə 3 iş günü müddətində verilir.

### 4. Yekun müddəa

4.1. Bu Qaydalar Universitet Elmi Şurası tərəfindən qəbul edildikdən və Universitetin rektoru tərəfindən təsdiq edildikdən sonra qüvvəyə minir və ya ləğv edilir.

4.2. Bu Qaydalara əlavə və dəyişikliklər Universitet Elmi Şurasının razılığı ilə edilə bilər.

4.3. Bu qaydalar 01 mart 2023-cü il tarixindən qüvvəyə minir.

****************************************************************************************

